# Ölkəmizi kədərə boğan dəhşətli qəza

**25 dekabr tarixində "Azərbaycan Hava Yolları" aviaşirkətinə məxsus J2-8243 nömrəli Bakı-Qroznı reysini yerinə yetirən "Embraer 190" təyyarəsi təcili eniş zərurəti ilə bağlı Aktau şəhəri yaxınlığında qəzaya uğrayıb. Göyərtəsində 67 nəfərin olduğu hava gəmisinin enişi nəticəsində 38 nəfər həlak olub, 29 nəfər sağ qalıb. Təcili yardım xidməti yaralı sərnişinləri təyyarədən çıxararaq dərhal yaxınlıqdakı xəstəxanalara yerləşdirib.**



Sankt-Peterburq şəhərində keçiriləcək MDB üzv ölkələrinin dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün Rusiyaya səfər edən Prezident İlham Əliyevə Rusiya hava məkanında olduğu zaman təyyarə qəzası ilə bağlı məlumat verilib.

**(davamı 7-ci səhifədə)**








# Ölkəmizi kədərə boğan dəhşətli qəza



**(əvvəli 1-ci səhifədə)**

Dövlət başçısı vəziyyətlə əlaqədar dərhal geri dönüb və AZAL-a məxsus sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması ilə bağlı müşavirə keçirib. Təyyarə qəzasında həlak olanlara Allahdan rəhmət, onların ailələrinə, yaxınlarına səbir diləyən Prezident deyib: "Azərbaycan xalqına böyük faciə üz vermişdir. Mən bu gün səhər MDB Zirvə görüşündə iştirak etmək üçün Bakıdan Sankt-Peterburqa təyyarə ilə uçurdum və uçuş zamanı bu qəza ilə, bu faciə ilə bağlı mənə məlumat verildi. Dərhal göstəriş verdim və təyyarə geriyə - Bakıya döndü. Hələ havada ikən mənim tərəfimdən müvafiq göstərişlər verildi, Baş nazirlə danışdım, onun rəhbərliyi ilə komissiya yaradıldı. Eyni zamanda Azərbaycan nümayəndələrindən ibarət heyət qəzanın baş verdiyi Aktau şəhərinə ezam edilmişdir. Əlavə göstəriş verildi ki, Azərbaycan həkimlərindən ibarət briqadalar da Aktau şəhərinə tezliklə ezam olunsun".

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı ilə hökumət nümayəndələrindən ibarət geniş heyət Qazaxıstanın Aktau şəhərinə yola düşüb. Heyətdə rəqəmsal inkişaf və nəqliyyat naziri, fövqəladə hallar naziri, baş prokurorun müavini, səhiyyə nazirinin müavini, Dövlət Mülki Aviasiya Agentliyinin direktorunun müavini, AZAL-ın vitse-prezidenti və digər aidiyyəti qurumların nümayəndələri yer alıb. Səfər hadisənin səbəblərini araşdırmaq, hadisədən zərərçəkənlərə dəstək göstərmək və bütün lazımi tədbirlərin koordinasiyasını təmin etmək məqsədi daşıyır.

Yerli icmanın və beynəlxalq ictimaiyyətin diqqəti bu qəzaya yönəlib. Rusiya Prezidenti Vladimir Putin Sankt-Peterburqda MDB-yə üzv dövlətlərin dövlət başçılarının qeyri-rəsmi görüşünü Aktauda baş verən təyyarə qəzasında həlak olanların ailələrinə başsağlığı verərək açıb. "Təyyarə qəzaya uğrayıb, ölənlər var, çoxlu yaralılar var. Sizin adınızdan həlak olanların ailələrinə və bütün zərərçəkənlərə başsağlığı vermək istəyirəm. Onların sağalacağına ümid edək", - deyə Rusiya lideri bildirib.

Qeyd edək ki, dövlət başçıları, nazirlər və digər rəsmilər təyyarə qəzası ilə əlaqədar Prezident İlham Əliyevə başsağlıqlarını ifadə edib, xəsarət alanların tezliklə şəfa tapmasını diləyiblər. Qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan Qazaxıstanın Aktau şəhəri yaxınlığında Azərbaycan təyyarəsinin qəzaya uğraması ilə bağlı başsağlığı verib. O, bu barədə Ak Parti TBMM Qrup toplantısında çıxışı zamanı danışıb: "Qazaxıstanda Azərbaycan təyyarəsinin qəzaya düşdüyünü böyük kədərlə öyrəndik. Hər iki qardaş ölkəyə millətimiz adından başsağlığı və şəfa diləklərimi çatdırıram". Türkiyənin bu dəstəyi bir daha qardaş ölkələr arasındakı yaxınlığı və həmrəyliyi nümayiş etdirir.

Qırğızıstan, Qazaxıstan, Serbiya, Pakistan, Böyük Britaniya, ABŞ və digər dövlətlər də Azərbaycana başsağlığı verib.

Ölkə başçımız İlham Əliyev baş vermiş faciə ilə əlaqədar 26 dekabrda ölkədə matəm elan edilməsi ilə bağlı Sərəncam imzalayıb. Sənəddə qeyd olunub ki, dekabrın 25-də Bakı-Qroznı reysini yerinə yetirən "Embraer 190" tipli sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar dekabrın 26-da Azərbaycanda matəm elan edilsin. Bununla əlaqədar ölkə ərazisində dövlət bayrağı yarıya qədər endirilib və şəhər mərkəzində qurulan şam ağaclarında bəzəkli işıqlar söndürülüb.

Bu dəhşətli qəza Azərbaycanın aviasiya tarixində unudulmaz iz qoyaraq, xalqın və beynəlxalq ictimaiyyətin diqqətini ölkəyə yönəltdi. Azərbaycanın həmrəyliyi və beynəlxalq ictimaiyyətin dəstəyi göstərir ki, belə çətin anlarda birlik və əməkdaşlıq ən böyük gücdür.

**Röya RÜSTƏMLİ,**
**"Respublika".**